# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№62 (1332), 17 - 19 oktyabr 2017-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*


Gələn il sentyabrın 29-dan oktyabrın 20-dək Yaponiyada keçiriləcək qadın voleybolçular arasında dünya çempionatının bütün iştirakçıları müəyyənləşib.

Son vəsiqələrin sahibləri Şimali, Mərkəzi Amerika və Karib Dənizi Hövzəsi, eləcə də Cənubi Amerika zonası üzrə qrup matçlarının yekununa əsasən məlum olub.




## Dünya çempionatının bütün iştirakçıları müəyyənləşib

Dominikan Respublikası və Meksika qrup qalibləri kimi Yaponiyaya bilet sifariş ediblər. Puerto-Riko ilə Trinidad və Tobaqo qrupda ikinci yeri tutub və çempionatda iştirak hüququ qazanıblar.

Dünya çempionatınının sonuncu vəsiqəsi isə Argentinaya qismət olub. Yığma komanda Cənubi Amerikada yer aldığı qrupun ən güclüsü adını qazanmaqla vəsiqəyə yiyələnib.

Beləliklə, dünya çempionatında 24 komanda - ev sahibi Yaponiya, Cənubi Amerikadan - Braziliya, Argentina, Avropadan - Rusiya, Serbiya, Türkiyə, İtaliya, Azərbaycan, Almaniya, Hollandiya, Bolqarıstan, Asiyadan - Çin, Cənubi Koreya, Tailand, Qazaxıstan, Şimali və Mərkəzi Amerika, Karib Dənizi Hövzəsi ölkələrindən - ABŞ, Kuba, Kanada, Dominikan Respublikası, Meksika, Puerto-Riko, Trinidad və Tobaqo, Afrikadan - Keniya və Kamerun milliləri birincilik uğrunda mübarizə aparacaq.

Qeyd edək ki, Azərbaycan millisi cari ildə Bakıda təşkil olunan dünya çempionatının seçmə mərhələsinin "E" qrupunun oyunlarında Norveç, Ukrayna, Danimarka, İsrail və Hollandiya yığmalarına qalib gələrək dünya çempionatına vəsiqə qazanıb.

## *Çingiz Hüseynzadə:*
## "Ölkəmizdə istənilən yarışı yüksək səviyyədə keçirə bilərik"

Azərbaycan Milli Olimpiya Komitəsinin 25 illik yubileyi yüksək səviyyədə qeyd olundu. Yubiley tədbirində iştirak etmək üçün bir sıra ölkələrin səlahiyyətli nümayəndələri Bakıya gəlmişdilər. Bu ərəfədə Avropa Olimpiya Komitəsinin (AOK) iclasının və eyni zamanda MDB və Baltikyanı ölkələrin, Gürcüstan Milli Olimpiya Komitəsinin Forumunun paytaxtımızda keçirilməsi çox önəmli idi.

Milli Olimpiya Komitəsi (MOK) ötən müddət ərzində mürəkkəb və şərəfli bir yol keçib, yüksək uğur və nailiyyətlərə imza atıb. Ölkənin idman qurumu idman və Olimpiya Hərəkatının inkişafı və təbliği istiqamətində özünəməxsus dəsti-xətti ilə dünya idmanında yeni bir səhifə açmağı bacarıb. Azərbaycan Milli Olimpiya Komitəsi çoxşaxəli səmərəli fəaliyyətini davam etdirir və inanırıq ki, bu sahədə uğurlarımız hələ çox olacaq.

Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə "Olimpiya dünyası" qəzetinə müsahibəsində MOK-un yaranma tarixindən, bu illər ərzində görülən işlərdən, əldə olunan nəticələrdən və bir çox maraqlı məqamlardan danışıb.

*(ardı 2-ci səhifədə)*

## Atletlərimiz qitə çempionatına uğurla başladılar

Oktyabrın 15-də Albaniyanın Dürres şəhərində 20-23 yaşlı gənclər arasında ağırlıqqaldırma üzrə Avropa çempionatına start verilib. Yarışda 36 ölkədən 405 atlet (235 kişi və 170 qadın) mübarizə aparır. Çempionatın ilk günündə 20 yaşlı idmançıların mübarizəsində gənc atletlərimiz iki bürünc medal qazanıblar.

Əvvəlcə Kənan Xəlilov (62 kq) birdənqaldırma hərəkətində 123 kq çəkini ram edərək bürünc medal qazanıb. O, təkanla qaldırmada 133 kq çəkinin öhdəsindən gələrək 7-ci olub. Atletimiz iki hərəkətin cəmində 256 kiloqramlıq (123 kq + 133 kq) nəticə ilə 6-cı yeri tutub.




Məhəmməd Məmmədli isə təkanla qaldırmada 148 kq-ın öhdəsindən gələrək bürünc medala sahib çıxıb. Birdənqaldırmada isə atletimiz 115 kiloqramı ram edib və bu hərəkətdə 6-cı olub. İki hərəkətin cəmində 263 kiloqramlıq (115 kq + 148 kq) nəticə göstərən Məhəmməd Məmmədli ümumi nəticədə 4-cü yerlə kifayətlənib.

Avropa çempionatı oktyabrın 22-dək davam edəcək.

## Pəhləvanlarımız Xasavyurtda yarışıblar



Oktyabrın 14-15-də Dağıstanın Xasavyurt şəhərində sərbəst güləş üzrə sayca 9-cu "Qitələrarası Kubok" adı altında beynəlxalq turnir keçirilib.

Turnirdə Azərbaycan pəhləvanları ilə yanaşı, Rusiya, Türkiyə, Polşa, Rumıniya, Peru, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Ukrayna və Belarus idmançıları da iştirak ediblər. Ölkəmizi bu yarışlarda yığma komandanın məşqçiləri Arif Abdullayev və Rövşən Hacıyevin rəhbərliyi altında 11 idmançımız təmsil edib. Güləşçilərimiz turniri 4 (2 qızıl, 1 gümüş və 1 bürünc) medalla başa vurublar. Qızıl medalları komandamıza Ağahüseyn Mustafayev (65 kq) və 97 kq-da mübarizə aparan Aslanbek Alborov (97 kq) qazandırıb. Yalnız final görüşündə uduzan Cəmaləddin Məhəmmədov (125 kq) turniri gümüş medalla başa vurub. Bürünc medalı isə yığmamızın aktivinə 125 kq çəki dərəcəsində mübarizə aparan Səid Həmidov yazdırıb.

Görüşlərin idarə olunmasında ölkəmizi beynəlxalq dərəcəli hakimlər Qərib Əliyev, Vaqif Zeynallı, Asif Şirəliyev və Sədi Quliyev təmsil ediblər.

**ÇL qrup mərhələsi** — **C qrupu**

## "Qarabağ" - "Atletiko"

(Azərbaycan) — (İspaniya)

*18 oktyabr. Bakı. Olimpiya Stadionu. Saat 20:00.*

## Dünya futbolunda "Barselona" fəlsəfəsi

İllər ərzində futboldan çox danışılıb, hər komandanın futbol fəlsəfəsi barəsində də geniş müzakirələr aparılıb. Şübhəsiz ki, komandanın oyun taktikası futbolçularla vəhdət təşkil etməlidir. Bu gün dünyada minlərlə azarkeşi olan İspaniyanın "Barselona" klubunda bu prisiplər yüksək səviyyədədir. Daimi oxucumuzun "Barselona" haqqında yazdığı məqalədə klubun pərdəarxası məqamları, təhlillər və azarkeş mövqeyi öz əksini tapıb. Maraqlı olacağını nəzərə alaraq, bu yazını oxucularımıza təqdim edirik.



*(ardı 3-cü səhifədə)*

## Avropa çempionatında uğurlu nəticə

Türkiyənin Antalya şəhərində keçirilən şahmat üzrə klublararası Avropa çempionatına yekun vurulub. Yarışın yekunu Azərbaycan komandaları üçün uğurlu olub. Kişilərdən ibarət "Odlar Yurdu"nu komandası sonuncu görüşündə Çexiya təmsilçisi "Novi Bor"la qarşılaşıb. Görüş rəqibin 3,5:2,5 hesablı qələbəsi ilə yekunlaşıb. Komandamız bu nəticədən sonra 11 xalla əlavə əmsallarda Makedoniya təmsilçisi "Alkoloid"dən geri qalaraq çempionatı bürünc medalla başa vurub. Birinci yeri isə Şəhriyar Məmmədyarovun çıxış etdiyi Rusiyanın "Qlobus" komandası tutub.

Qadınlardan ibarət "Odlar Yurdu" komandası isə Türkiyə klubu ilə qarşılaşıb. "Mərmərə" klubu ilə görüş təmsilçilərimizin qələbəsi ilə başa çatıb - 2,5:1,5. Xanım şahmatçılarımız yekunda 11 xal toplayıb və yalnız əlavə əmsallarda Gürcüstan "None" klubundan geri qalaraq gümüş medallara sahib çıxıblar.



## Olimpizm

### *Braziliya MOK-nun fəaliyyəti dayandırılıb*

Beynəlxalq Olimpiya Komitəsi (BOK) Braziliya Milli Olimpiya Komitəsinin (MOK) fəaliyyətini müvəqqəti olaraq dayandırıb. Bu barədə BOK-un rəsmi saytında xəbər verilir.




Bu məsələ ilə bağlı qərar Braziliya MOK-nun sədri və Rio-2016 Yay Olimpiya Oyunları Təşkilat Komitəsinin rəhbəri Karlos Artur Nuzmanın həbsindən sonra verilib. Həmin şəxsin adı korrupsiya qalmaqalında hallanır.

Braziliya hökumətinin federal prokurorluğu 2016-cı ildə keçirilən yay Olimpiya Oyunlarına ev sahibliyi məsələsində məmurlara verilən rüşvətin 2 milyon dollar məbləğində olduğunu açıqlayıb.

Bu ilin sentyabr ayında Rio-de-Janeyro polisi MOK-un sədri və Rio-2016 Yay Olimpiya Oyunları Təşkilat Komitəsinin rəhbəri Karlos Artur Nuzmanın evində axtarış aparıb. Axtarış zamanı onun evindən dəyəri 678 min dollar olan qızıl külçələr tapılıb. İstintaq orqanları həmin şəxsi Rio-de-Janeyro şəhərinin ev sahibi seçilməsi ilə bağlı rüşvət verməkdə günahlandırır. Karlos Artur Nuzmanla birlikdə Braziliya MOK-nun keçmiş direktoru Leonardo Qriner də həbs olunub. Braziliya polisi dinləmələrdən və dindirilmələrdən sonra istintaq orqanları onların səlahiyyətli şəxslərə 500 min dollar rüşvət verməsini təsdiqləyib.

### *Olimpiyaçı idmandan uzaqlaşdırılıb*

London-2012 Paralimpiya Oyunlarının gümüş mükafatçısı Şakil Bens antidopinq qaydalarını pozduğuna görə 3 il müddətinə idmandan uzaqlaşdırılıb. ABŞ idmançısı Oklahomada qaçış üzrə keçiriləcək yarışlarda iştirak etmək üçün dopinq testindən



keçməli olduğu halda, bundan imtina edib. Bu səbəbdən Şakil Bens 4 il müddətinə diskvalifikasiya edilib. Lakin sonra səhvini boynuna aldığına görə idmançının cəzası 1 il azaldılıb.

(əvvəli 1-ci səhifədə)

# Çingiz Hüseynzadə:
# "Ölkəmizdə istənilən yarışı yüksək səviyyədə keçirə bilərik"

***- Çingiz müəllim, Milli Olimpiya Komitəsi 25 illik yubileyini yüksək səviyyədə qeyd etdi. Necə deyərlər, 25 illik fəaliyyət bir əsirlik nailiyyətə bərabər idi. Bayram əhval-ruhiyyəsinin bu gün də davam etdiyi bir vaxtda MOK-un fəaliyyətilə bağlı Sizin fikirlərinizi "Olimpiya dünyası"nın çoxsaylı oxucuları ilə bölüşmək maraqlı olardı.***

- Azərbaycan öz müstəqilliyini qazanandan sonra ölkəmizdə bir çox sahələr yenidən qurulmağa başladı. Bu idman sahəsindən də yan keçmədi. 1992-ci ildə Azərbaycan Milli Olimpiya Komitəsi yaradıldı. Həmin vaxt formal şəkildə yaranan Milli Olimpiya Komitəsinin nə maddi, nə də mənəvi bazası yox idi. Bu qurumun yaranması ilə Barselonada keçirilən yay Olimpiya Oyunları üst-üstə düşdü. İspaniyada təşkil olunan olimpiadada idmançılarımız MDB ölkələrinin tərkibində iştirak etdilər. Həmin heyətdə cüdoçumuz Nazim Hüseynov qızıl, idman gimnastikasında Valeri Belenki şəxsi birincilikdə bürünc, komanda yarışında isə qızıl medal əldə etdi. 1996-cı ildə Atlantada keçirilən Olimpiya Oyunlarında isə Azərbaycan artıq müstəqil ölkə kimi təmsil olunurdu. Həmin olimpiadada komandamız 23 idmançı ilə mübarizə apardı. Okeanın o tayında keçirilən yarışlarda sərbəst güləşçimiz Namiq Abdullayev gümüş medal qazandı. Əlbəttə, bu uğurlarla kifayətlənmək olmazdı. Milli Olimpiya Komitəsinin fəaliyyətini gücləndirmək lazım idi. Milli Olimpiya Komitəsi daha fəal, daha işlək olmalı idi. Həmin dövrdə idman qurumunun Beynəlxalq Olimpiya Komitəsi ilə demək olar ki, heç bir əlaqəsi yox idi. Azərbaycanda heç bir beynəlxalq tədbir keçirilmir, ölkəmiz BOK-un bayrağı altında təşkil edilən heç bir tədbirdə iştirak etmirdi. MOK-un fəaliyyətində dönüş yaranmalı idi ki, bu da 1997-ci ilə təsadüf etdi. Həmin il idman ictimaiyyətinin tələbi ilə Milli Olimpiya Komitəsinə yenidən seçkilər keçirildi və cənab İlham Əliyev 1997-ci ildə Milli Olimpiya Komitəsinin prezidenti seçildi. Vitse-prezident vəzifəsinə isə məni təyin etdilər. Həmin dövrdə Milli Olimpiya Komitəsi üçün Yüksək İdman Ustalığı Məktəbində bir otaq ayrılmışdı. MOK-un 3-4 işçisi həmin otaqda əyləşirdi və demək olar ki, heç bir fəaliyyət yox idi. O dövrdə cənab İlham Əliyevin tapşırığı ilə mövcud şərait təhlil olundu. Məlum oldu ki, idmançılarımız və idman mütəxəssislərimizin bir çoxu Azərbaycanı tərk ediblər. İdmançılarımızın və federasiyaların vəziyyəti çox acınacaqlı halda idi. Maliyyə çatışmırdı, böyük idman obyektlərinin bir neçəsi özəlləşdirilmişdi. Bir sözlə, idman infrastrukturu çox bərbad vəziyyətdə idi. Buna görə də ilk qərarlar ondan ibarət oldu ki, əvvəlcə Azərbaycanın xaricdə olan ən görkəmli idman mütəxəssisləri, idmançıları respublikaya dəvət olunsun və onlar üçün şərait yaradılsın. Həmin dövrdə Faiq Qarayev, voleybolçu qızlarımızdan bir neçəsi, boksçumuz Ağası Məmmədov Türkiyədə çıxış edirdi. Bundan başqa, bir çox güləşçilərimiz, həndbolçularımız, basketbolçularımız, cüdo mütəxəssislərimiz də xarici ölkələrdə fəaliyyət göstərirdilər. Biz bu mütəxəssisləri yenidən bir yerə yığmağa çalışdıq. Cənab İlham Əliyevin göstərişi ilə onlar vətənə qayıtdılar. 1998-ci ildən etibarən gənc idmançılar üçün təqaüdlər təsis olundu. Yarışlarda iştirak edən idmançılar və məşqçilər təqaüdlər almağa başladılar. Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev idmanın və Milli Olimpiya Komitəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində lazımi tədbirlər görmək üçün qərar verdi. Biz həmin dövrdən böyük tikintilərə başladıq. Bakı, Gəncə, Naxçıvan şəhərlərində və digər rayonlarda Olimpiya idman kompleksləri inşa edildi. O cümlədən, Milli Olimpiya Komitəsinin yeni inzibati binası inşa olundu. MOK-un işçilərinin sayı artırıldı, işə yeni mütəxəssislər cəlb olundu.

Bizim qarşımızda duran əsas məqsədlərdən biri də Milli Olimpiya Komitəsinin beynəlxalq əlaqələrinin möhkəmləndirilməsi idi. Beynəlxalq Olimpiya Komitəsi ilə Avropa Olimpiya Komitəsi ilə əlaqələr yaradılmalı və onların nümayəndələri Bakıya dəvət olunmalı idi. Beləliklə, biz həmin qurumların keçirdiyi bütün tədbirlərdə iştirak etməyə başladıq. Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev keçirilən beynəlxalq tədbirlərdə şəxsən iştirak edirdi. 2001-ci ildə Avropa Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin iclası Bakıda keçirildi. O zaman hər hansı beynəlxaq turnirə, hətta B kateqoriyalı turnirlərə ev sahibliyi etmək üçün müraciət edəndə, bizə deyirdilər ki, siz hələ belə bir yarışı keçirməyə hazır deyilsiniz. 1999-cu ildən başlayaraq biz müxtəlif beynəlxalq yarışlar və tədbirlər təşkil etməyə başladıq. Təbii ki, ilk tədbirlər yeniyetmələr arasında keçirildi. 2002-ci ildən etibarən ölkəmizdə müxtəlif idman növləri üzrə dünya, Avropa çempionatları və digər mötəbər yarışlar keçirilməyə başlandı. Yeni idman obyektləri inşa edilir, köhnələri əsaslı şəkildə bərpa olunurdu. Tofiq Bəhramov adına Respublika Stadionu, Heydər Əliyev adına İdman Arenası, Bakı İdman Sarayı və digər obyektlər tamamilə təmir olundu və idmançıların ixtiyarına verildi. Bu gün respublikamızda 50-yə yaxın Olimpiya idman kompleksi istifadəyə verilib. Həmin komplekslərdə məşğul olan idmançılar bu gün yığma komandaların tərkibində müxtəlif beynəlxalq yarışlarda ölkəmizi layiqincə təmsil edirlər. İdmana sərmayə qoymadan nəticə əldə etmək mümkün deyil. Əgər idmançı yetişdirmək istəyirsənsə, onun məşq etməsi üçün şərait və imkan yaradılmalıdır. İdmançı müəyyən məvacib almalıdır ki, başqa işlərdən azad olsun, qazanc əldə etmək üçün idmanı atıb digər işlərlə məşğul olmasın. Milli Olimpiya Komitəsinin idman və Olimpiya Hərəkatı sahəsində apardığı islahatlar artıq öz bəhrəsini verir və bu gün ölkəmiz dünyada idman ölkəsi kimi tanınır.



***- Milli Olimpiya Komitəsinin 25 illik yubileyi ilə bir sıra beynəlxalq tədbirlərin təşkili üst-üstə düşdü. Bu, əvvəlcədən planlaşdırılmışdı?***

- Milli Olimpiya Komitəsinin 25 illik yubileyi ilə əlaqədar ölkəmizə kifayət qədər mötəbər qonaqlar gəlmişdilər. Yubiley tədbirində böyük məmnuniyyətlə iştirak edən bir çox beynəlxalq təşkilatlar öz tədbirlərini yubiley ərəfəsində keçirmək istədilər. Avropa Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin iclası və MDB və Baltikyanı ölkələrin, Gürcüstan Milli Olimpiya Komitəsinin Forumu Bakıda keçirildi. Bundan başqa, Bakı yeni yaranmış Avropa Olimpiya Akademiyalarının ilk seminar-konfransına da ev sahibliyi etdi. Bu tədbirlərdə 100-ə yaxın xarici qonaq məşhur idmançılar, mütəxəssislər və alimlər Azərbaycana gəlmişdilər. AOK-un keçmiş və indiki icraçı prezidenti, müxtəlif beynəlxalq federasiyaların rəhbərləri ölkəmizdə səfərdə oldular. Keçirilən tədbirlərdə Azərbaycanın son 20 ildə əldə etdiyi nailiyyətlər xüsusi ilə qeyd olundu. Bir sözlə, Milli Olimpiya Komitəsinin 25 illik yubileyi çox yüksək səviyyədə keçirildi.

***- Çingiz müəllim, fəaliyyətinizlə bağlı müxtəlif xarici ölkələrdə olur, yüksək səviyyəli tədbirlərdə iştirak edirsiniz. Orada gördüklərinizin və müşahidə etdiklərinizin təcrübə baxımından yəqin ki, böyük əhəmiyyəti vardır.***

- Milli Olimpiya Komitəsi bu səviyyəyə birdən-birə gəlməyib. Bizə təcrübə lazım idi və biz bu təcrübəni Olimpiya Oyunlarında, dünya, Avropa çempionatlarında və digər nüfuzlu beynəlxalq tədbirlərdə iştirak etməklə qazanmağa başladıq. Bu yolla tədricən təcrübələrimiz artmağa başladı, yüksək nailiyyətlər əldə etdik. Təşkilatçılıq baxımından da, böyük uğurlara nail olduq. Zaman keçdikcə bir sıra ölkələr bizim təcrübəmizdən yararlanmağa başladı. Beynəlxalq arenada ev sahibliyi etdiyimiz idman tədbirlərini artıq müqayisə etməyə başlamışdılar. Rio-2016 Yay Olimpiya Oyunları Bakı-2015 Avropa Oyunlarından bir il sonra keçirildi. Təsəvvür edin, Bakıda iştirak edən ölkələrin milli Olimpiya komitələrinin rəhbərləri Rio-2016 Olimpiadasını Bakı-2015 Avropa Oyunları ilə müqayisə edirdilər. Onların fikrinə görə, I Avropa Oyunları Olimpiya Oyunları səviyyəsində təşkil edilmişdi.

Məsələn, 2014-cü ilə qədər atletika üzrə beynəlxalq yarışların təşkilində təcrübəmiz demək olar ki, yox idi. Atletika yarışlarının keçirilməsində hakimlik və təşkilati məsələlər çox mühüm əhəmiyyət daşıyır. 2014-cü ildə ilk dəfə olaraq Tofiq Bəhramov adına Respublika Stadionunda atletika üzrə yeniyetmələrin Avropa 2-ci təsnifat yarışı keçirildi. Bu əhəmiyyətli yarışı yüksək səviyyədə təşkil etmək üçün bir neçə seminar təşkil etdik. Seminarda iştirak edən təcrübəli xarici mütəxəssislər bizim hakimləri təlimatlandırdılar. Sonra həmin yerli hakimlər I Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunlarında yarışları idarə etdilər. Atletika üzrə hakimlərimiz 2015-ci ildə Gürcüstanda keçirilən Avropa Yeniyetmələrinin Olimpiya Festivalında da ədaləti qorudular. Hakimlərimiz buyaxınlarda Aşqabadda keçirilən Asiya Oyunları çərçivəsində də atletika yarışlarında iştirak etdilər. Bu da o deməkdir ki, ölkəmizdə artıq beynəlxalq yarışları idarə etməyi bacaran hakimlər qrupu da mövcuddur. Bu gün biz ölkəmizdə istənilən yarışı yüksək səviyyədə keçirə bilərik.

## "İnanıram ki, gələcəkdə Olimpiya Oyunlarının bir ölkədə keçirilməsi tələbi aradan qaldırılacaq"

***- Olimpiya Oyunlarına ev sahibliyi etmək üçün ölkələr biri-biri ilə gərgin rəqabət aparırlar. Necə düşünürsünüz, ölkəmizin Olimpiya Oyunlarına ev sahibliyi etməsi üçün daha çox hansı tədbirlər həyata keçirilməlidir?***

- Azərbaycan Olimpiya Oyunlarına ev sahibliyi etmək üçün iki dəfə öz namizədliyini irəli sürüb. Düşünürəm ki, ikinci dəfəki müraciətimiz daha maraqlı və uğurlu alınıb. Namizədlik mübarizəsindən keçməsək də, bu, böyük təcrübədir. Olimpiya Oyunlarını keçirmək üçün böyük potensial lazımdır. Bu nəhəng idman tədbirinin özünəməxsus tələbləri və şərtləri vardır. Məsələn, basketbol yarışına ən azı 18 min, voleybol yarışı üçün 12 min oturacağı olan zal lazımdır. Yəni hansısa idman növü üzrə ən kiçik zal 6 minlik tamaşaçı tutumuna malik olmalıdır. 2004-cü ildə Afina bu tələbləri yerinə yetirdi. Amma oradakı zallar bugünkü gündə də boş qalıb, istifadə olunmur. Çünki Afinada 18 min basketbol tamaşaçısı yoxdur ki, gəlsin Yunanıstan çempionatını izləsin. Bu qurğuları saxlamaq üçün kifayət qədər böyük vəsait lazımdır. Bu baxımdan Beynəlxalq Olimpiya Komitəsi Olimpiya Oyunları keçirilən ölkədə Olimpiya irsinə diqqət edir. Yəni, olimpiadadan sonra ev sahibliyi edən ölkənin qazancı çox önəmlidir. Elə götürək, Barselona-1992 Olimpiadasını. Yarışlardan sonra bu şəhərə turist axını çoxaldı. Fikir vermisinizsə, kiçik ölkələrin heç biri Olimpiya Oyunlarına ev sahibliyi iddiası ilə çıxış etmir. Amma Azərbaycan 2015-ci ildə I Avropa Oyunlarına yüksək səviyyədə təşkil etdikdən sonra Beynəlxalq Olimpiya Komitəsinin rəhbərliyi ölkə başçısı İlham Əliyevə Azərbaycanın Olimpiya Oyunlarına namizədlik seçimində iştirak etmək iqtidarında olduğunu dedi və öz təklifini verdi: "Biz əminik ki, siz bunu qazana bilərsiniz. Siz artıq sübut etdiniz ki, Olimpiya Oyunlarını keçirdə bilərsiniz". Düzdür, Bakı Olimpiya Stadionu və bir neçə idman obyektimiz Olimpiya Oyunlarının tələblərinə cavab verir. Lakin bəzi idman qurğuları bu tədbirlərə cavab vermir və yenidən tikilməlidir. Ölkəmiz I Avropa Oyunlarının irsindən faydalanır və faydalanacaq. Bu ərəfədə inşa edilən idman qurğularında - Bakı Su İdmanı Sarayı, Milli Gimnastika Arenası, Bakı Atıcılıq Mərkəzi, Bakı Olimpiya Stadionunda çox böyük tədbirlər keçirilir. Biz I Avropa Oyunlarından sonra həmin arenalarda IV İslam Həmrəyliyi Oyunlarını təşkil etdik. Ölkəmiz 2019-cu ildə Avropa Yeniyetmələrinin Olimpiya Festivalına ev sahibliyi edəcək. Bizim beynəlxalq yarışları yüksək səviyyədə keçirmək üçün kifayət qədər idman qurğularımız vardır. BOK Olimpiya Oyunlarının keçirilmə prinsipində dəyişikliklər edir. Bir müddət əvvəl 2024-cü və 2028-ci illərdə keçiriləcək Olimpiya Oyunlarına ev sahibliyi edəcək ölkələrin adı müəyyənləşdi. Gələcəkdə olimpiadanın bir şəhərdə keçirilməsi prinsipi də aradan qaldırılacaq. Əvvəllər olimpiadanın təşkili ölkənin deyil, şəhərin adı ilə bağlı olurdu. Bir və ya iki idman növü (yelkənli qayıq və atçılıq) istisna olmaqla, qalan idman növləri kompakt halda bir yerdə keçirilməli idi. Amma indi bu tələb aradan qaldırılıb. İnanıram ki, gələcəkdə Olimpiya Oyunlarının bir ölkədə keçirilməsi tələbi də aradan qaldırılacaq. Təbii ki, bu tələblər ləğv ediləndə idman obyektlərinə olan tələblər də aradan qaldırılacaq. Əgər idman növlərini 5-6 min tamaşaçı tutumu olan arenalarda keçirmək mümkün olsa, onda Olimpiya Oyunlarına ev sahibliyi etmək istəyən ölkələrin də sayı artacaq. Son seçim prosesinə nəzər salanda, burada İngiltərə, Fransa, Amerika, Çin, Yaponiya, İspaniya, İtaliya kimi dünyanın ilk iqtisadi səkkizliyinə daxil olan ölkələrin adlarını görə bilərik. Deyək ki, bizim iqtisadi imkanımız yaxşıdır və yeni idman obyektləri tikə bilərik. Bəs sonra bu obyektlərin taleyi necə olacaq? Bakı 2025-ci ildə keçiriləcək Ekspo sərgiyə ev sahibliyi etmək üçün öz namizdliyini irəli sürüb. Əgər bu tədbirə ev sahibliyi etmək hüququ Bakıya verilsə, bu paytaxtımızda Olimpiya Oyunlarını təşkil etmək üçün imkanlar yaradacaq. Tədbirlə bağlı çox böyük sərgi yerləri açılacaq ki, bunları sonradan idman obyektlərinə çevirmək asan başa gəlsin.

## "Afinada olimpiada keçirilməsəydi, burada metro tikilməzdi"

***- Olimpiya Oyunlarına ev sahibliyi etmək istəyən ölkələrin əsas maraqları nədən ibarətdir?***

- Nəhəng ölkələrin güclü idman bazası, müvafiq infrastruku vardır. Onların Olimpiya Oyunlarında qazancları xərclərindən çox olə bilər. Bu məsələnin iqtisadi tərəfidir. Digər cəhətdən isə hər bir ölkələrin, hətta tanınmış lider ölkələrin belə daha çox tanınmağa, turist cəlb etməyə ehtiyacı vardır. Olimpiya Oyunları bunun üçün ən gözəl vasitədir. Bundan başqa, Olimpiya Oyunları televiziya vasitəsi ilə ən çox tamaşaçı cəlb edən idman tədbiridir. Təsəvvür edin, 20 gün ərzində 3 milyarda yaxın insanın diqqəti bu yarışlara yönəlir. Hər bir ölkənin rəhbəri Olimpiya Oyunlarına ev sahibliyini ən böyük nailiyyət kimi qiymətləndirir. Olimpiya Oyunlarını təşkil etmək üçün hər bir ölkə bacarığını ortaya qoyur. BOK olimpiadanın təşkili üçün həmin ölkəyə kifayət qədər maddi yardım göstərir. Məhz bu səbəbdən dövlətlər Olimpiya Oyunlarına ev sahibliyi etmək üçün çox can atırlar. London-2012 Olimpiadasında inşa edilən "Olimpiya kəndi" indi şəhərin ən gözəl məkanına və biznes mərkəzinə çevrilib. Digər tərəfdən, ekoloji problem həll olunub. Londonun pis bir vəziyyətdə olan böyük bir ərazisi Olimpiya Oyunları üçün çox gözəl bir hala gətirilib. Onlar Olimpiya Oyunlarının gətirdiyi gəlir hesabına bu işi gördülər. Bu, ingilislərin böyük qazancı oldu. 2018-ci ildə Pekində keçirilən Olimpiya Oyunları zamanı çinlilərin də qazancları böyük oldu. Çinlilər bir çox yarışları universitetlərin idman qurğularında keçirdilər. Yəni onlar universitetlərin idman klublarını, saraylarını Olimpiya səviyəsinə çatdırdılar. Olimpiadadan sonra bütün bu qurğular tələbələr üçün qaldı. Tələbələr artıq həmin qurğularda idmanla məşğul olurlar. Yəni, çinlilər tələbə idmanının inkişafını olimpiadanın hesabına həll etdilər. Bəzən deyirlər ki, Afina olimpiadadan ziyanla çıxdı. Lakin Olimpiya Oyunları Afina üçün də müəyyən qədər qazanc gətirdi. Məhz Olimpiya Oyunlarına görə Afinada yeni aeroport və metro tikildi. Əvvəllər bu şəhərdə metro yox idi. Çünki orada tarixi abidələrə görə metro xətti tikmək çox xərc tələb edirdi. Hər olimpiada özündən sonra bir irs qoyur. Ona görə də hər bir dövlət Olimpiya Oyunlarına ev sahibliyi etməkdə maraqlıdır. Çünki məhz bu yarışlar vasitəsilə ölkələr istənilən böyük layihəni həyata keçirə bilirlər.




## "Olimpiya ideallarının təbliği üçün yeni bir proqram hazırlayırıq"

***- Milli Olimpiya Komitəsinin fəaliyyətində hansı yeniliklər nəzərdə tutulur?***

- Milli Olimpiya Komitəsi ancaq idman yarışlarının keçirilməsi ilə məşğul olmur. MOK-un ən vacib işlərindən biri də olimpizmin, Olimpiya Hərəkatının, Olimpiya dəyərlərinin, sağlam həyat tərzinin əhali arasında təbliğatını təmin etməkdir. Son iki ildə biz məktəblilərin iştirakı ilə Olimpiya Hərəkatı proqramını həyata keçiririk. Biz bu təbliğatı gələcəkdə də davam etdirəcəyik. Proqramla bağlı başqa mühüm tədbirlər də nəzərdə tutulur. Yeni bir proqram üzərində işləyirik. Məqsədimiz Olimpiya ideallarının təbliğini həyata keçirmək və bu məsələdə Olimpiya çempionlarımızın köməyindən istifadə etməkdir. Beynəlxalq Olimpiya Komitəsi "Olimpiya və mədəniyyət", "Olimpiya və sağlamlıq", "Olimpiya və ekologiya", "İdman hamı üçün" və "İdman və qadın" adlı müxtəlif proqramlar həyata keçirir. MOK Beynəlxalq Olimpiya Komitəsinin bütün proqramlarında fəal iştirak edir. Bu gün Azərbaycan Milli Olimpiya Komitəsi atletlərimizin Olimpiya Oyunlarında və müxtəlif beynəlxalq yarışlarda yüksək səviyyədə iştirakını təmin etməklə öz işini bitmiş hesab etmir. Komitə idman və Olimpiya Hərəkatının təbliği sahəsində də böyük işlər görür. MOK günümüzün reallığı olan sosial şəbəkələrdən istifadədə fəallığını artırıb. Bunun nəticəsidir ki, Rio-2016 Olimpiadasında həyata keçirdiyimiz layihəyə görə MOK Olimpiya komitələri arasında sosial şəbəkələrə iş üzrə ilk onluğa daxil olub. Milli Olimpiya Komitəsinin əsas vəzifələrindən biri də 2019-cu ildə Bakıda keçiriləcək Avropa Yeniyetmələrin XV Olimpiya Festivalının uğurla təşkil olunmasıdır. 10 idman növü üzrə keçiriləcək bu yarışa təxminən 3500-4000 iştirakçının gələcəyi gözlənilir.

***- "Qarabağ" futbol klubu dünyanın ən nüfuzlu turnirlərindən biri olan Çempionlar Liqasının qrup mərhələsində iştirak edir. Komandamızın bu uğuru ilə bağlı fikirlərinizi bilmək maraqlı olardı.***

- Çempionlar Liqasının qrup mərhələsində iştirak etmək çox böyük uğurdur. "Qarabağ"ın uğuruna çox inanıram. Klubun qrup mərhələsindəki oyunlarına gəlincə, idman elə bir fəaliyyət sahəsidir ki, ilk dəfədən qalib gəlmək mümkün deyil. 50 ildən artıq futbolla maraqlanan bir insan kimi bilirəm ki, bunun üçün təcrübə lazımdır. Bəxtimizdən qrupdakı rəqiblərimizin hər üçü çox güclüdür. Bu baxımdan "Qarabağ" üçün çox çətindir. İlk görüşdə komandada çox həyəcan var idi. İkinci görüşdə də komandamız oyuna həyəcanlı başladı. Lakin futbolçularımız sonradan başa düşdülər ki, "Roma" klubu ilə oynamaq mümkündür. "Qarabağ" qol vurduqdan sonra daha gözəl oyun nümayiş etdirdi. Düzdür, nəticə alınmasa da, ortada gözəl oyun var idi. Səviyyəli oyun olmalıdır ki, nəticə də olsun. İnanıram ki, komandamız daha gözəl oyun nümayiş etdirəcək. Düşünürəm ki, "Qarabağ" Çempionlar Liqasının qrup mərhələsinə çıxmağa nail olubsa, uğurların davamı gələcək.

***Anar Əhmədov,***
***Azər Əlizadə***

Olimpiya dünyası



# Dünya futbolunda “Barselona” fəlsəfəsi



Mobil İSMAYILOV

(əvvəli 1-ci səhifədə )

***Çoxdan bu barədə yazmaq istəyirdim. Çünki içimdən gələn doğma, şirin, cəlbedici bir mövzu idi. Nəhayət, bu istəyimi 2015-ci ilin avqustunda Avropa səfərində reallaşdırdım. Görünür, istəyin, həvəsin, ümumiyyətlə, hər şeyin öz məqamı var. Mən də vaxt, imkan fürsətindən, yüksək əhvali-ruhiyyədən yararlandım....***

## Futbol hisslərini özündə yaşadan futbolla dost ola bilər

Futbolun duyulması çox maraqlıdır. Futbol da bəzən fəlsəfələşir və azarkeşləri, tamaşaçıları düşündürür. Futbolu ürəkdən sevən gərək futbolla dost olsun. Yalnız futbol hisslərini özündə yaşadan futbolla dost ola bilər. Çünki sevinci də var, acısı da. Bir az da başqa cür ifadə etsək, yaxanı futbola tanıtdırdın, vəssalam....

Futbolu çox sevirəm. Elə uşaqlıqdan. Mən futbolla uşaqlıqdan dost olmağa başlamışam. Futbolu duyduğuma görə də futbolçular, ümumiyyətlə, futbol adamları, bütün futbola meyillilər mənim üçün doğmadırlar. Sanki mən onlarla obrazlı desəm, futbol qohumuyam. Futbol qohumluğu da elə adi qohumluq kimi bir şeydir.

Hətta küçədə, həyətdə futbol oynayanlar da mənim diqqətimi cəlb edir. Əslində burada təəccüblü bir şey də yoxdur. Axı, ən adi oyun, zəif, həvəskar komandaların meydançada görüşü belə hardasa futbolsevərlərin marağına səbəb olur. Elə komandalar da var ki, onların oyunlarını səbirsizliklə gözləyirsən, günləri sayırsan. Məsələn, “Barselona” kimi...

## “Barselona” tamaşaçını, izləyicini heyrətləndirən komandadır

Mən “Barselona”nın pərəstişkarıyam. Özü də lap çoxdan. İllər keçdikcə “Barselona” mənə daha doğma, ötüb keçmiş mövsümlərdən daha maraqlı, məzmunlu, həmişəkindən daha dolğun, sirli görünürdü. Sirli, müəmmalı olan hər şeydə isə güclü cazibə var. Bu ürəyə yatan fikir, deyim elə futbola da yapışır.

İçərisində ömür sürdüyümüz sirli-sehirli dünyamızın idman aləmi “Barselona”nın timsalında bizə çox özəlliklər bəxş etmişdir.

“Barselona” tamaşaçını, izləyicini heyrətləndirən komandadır. Bu komandanın oyunu tamaşaçılarda sanki izaholunmaz qəribə əhval yaradır, adamın ürəyinə yatır, azarkeşləri özünə bağlayır. Əksər hallarda komandanın oyunu sanki bayramı xatırladır. Nümayiş etdirilən gözəl futbol bayram ovqatına çevrilir. Tamaşaçılar, azarkeşlər ölçüyəgəlməz zövq alırlar. Onlar sanki yaxşı günlərdən birini yaşayırlar. Sevinclərinin həddi-hüdudu olmur. “Barselona”nın oyunlarını izləyərkən mən də həmişə düşünmüşəm ki, futbolsevərlərə, tamaşaçılara necə gözəl mənzərə, necə valehedici dəqiqələr bəxş olunur. Həmin anlarda stadionda olmağı təsəvvür edirsən. Bu anların, dəqiqələrin bitməsini, ümumiyyətlə, oyunun başa çatmasını istəmirsən. O gözəllikdən, zövqdən, sehirli aləmdən ayrılmaq istəmirsən. Necə ki, uşaqlıqda maraqlı nağılların qurtarmasını istəmirdik. İstəyirsən ki, bu möhtəşəm futbol mənzərəsi, əsl bayram ovqatı beləcə davam etsin. Sanki matç boyu qeyri-adi müsbət emosiyalar, az qala dillə, sözlə deyilməsi mümkün olmayan gözəlliklər içində üzürsən. Buna görə də bu komanda hər cür alqışa layiqdir.

## “Barselona”nın oyun fəlsəfəsi - futbolun bütövlükdə mükəmməl oynanılması stilidir

Bir arada tez-tez Kataloniya klubunun oyun fəlsəfəsindən danışmağa başladılar. Son illər isə bu fəlsəfəni əhatə edən oyun sistemi barədə fikirlər demək olar ki, hər gündəmdən düşmür. Daim təhlil, müzakirə, söhbət mövzusuna çevrilmişdir. Elə məsələlər var ki, onlara fikir bildirmək üçün müəyyən yaş və həyat təcrübəsi lazım gəlir. Məncə, futbolun incəliklərini, dərinliklərini də bu məsələlərə aid etmək olar. Bu baxımdan mən də mülahizələrimi oxucularla, futbolsevərlərlə bölüşmək qərarına gəldim.

“Barselona”nın oyun fəlsəfəsi - futbolun bütövlükdə mükəmməl oynanılması stilidir. Spesifik futbol metodikasının ümumiləşdirilmiş, cəmləşdirilmiş sistemi bu fəlsəfənin əsasını təşkil edir. Lap sadə şəkildə desək, Kataloniya klubunun oyun fəlsəfəsi düzgün futbol oynamaqdır, əsl futbol oynamaqdır. Olduqca məzmunlu və səlist oyun göstərmək bu fəlsəfənin tərkib hissəsinə daxildir. Bu fəlsəfənin mahiyyəti ideal formalaşmış komanda deməkdir. Bu - futbol meydanındakı düşüncə tərzidir. Mükəmməl oynamaq formaları bu fəlsəfənin əsasını təşkil edən parametrlərdəndir. Kompaktlıq və planlılıq da bu fəlsəfəyə daxildir. Hamı komanda şəklində oyun üçün nəzərdə tutulan plana uyğun qayda və prinsiplərə dürüst əməl edir. Kor-koranə, xaotik hərəkətlər bu komandaya yaddır. Hər şey düşünülmüş şəkildə həyata keçir. Komanda üzvlərinin bütün oyun boyu hərəkəti bu kompaktlıqdan və oyun planından qaynaqlanır. Onlar üçün meydanın o başı, bu başı yoxdur. Futbolçuların münasibətlərinin əla olmasını, bir-birini gözəl anlamasını da xüsusi qeyd etmək lazımdır. Ümumiyyətlə, oyun ərzində futbolçuların bir-biri ilə nümunəvi davranışı tamaşaçıların diqqətindən kənarda qalmır. Bütün bunlar sanki “Barselona” futbolçularının qanına yeridilib. “Barselona”nın oyun fəlsəfəsi əslində sadə dərk olunan bir prosesdir. Komandada hamı hər şeyi ideal formada bacarır, səhvlər çox cüzi olur, hətta o qədər az olur ki, hiss edilmir. Oyunçular istəklidirlər və bu istəklilik onların peşəkarlığına uyğundur. Elə illər olub ki, bu komandanın futbolçuları hər şeyi reallaşdıra biləcək gücə malik olublar.

“Barselona” hücuma keçəndə sıxılmış “prujin” kimi birdən açılır və rəqib komandanın oyunçuları özlərini itirməyə başlayırlar. Buna görə də Kataloniya klubunun bu cür qəfləti hücum təzyiqi digər komandalarda qorxu yaşadır. Hərdən mənə elə gəlir ki, “Barselona” obrazlı desək, sanki fasiləsiz, yorulmaq bilmədən, xüsusi zövqverici melodiyalar, mahnılar ifa edən peşəkar sənətkarlardan ibarət bir orkestrdir, bir ansambldır. Hesabı qoruyub saxlamaq niyyəti “Barselona” fəlsəfəsində heç vaxt olmayıb. Passiv müdafiəyə çəkilmək düşüncəsi bu fəlsəfəyə daxil deyil. Tədricən azarkeşlər, mütəxəssislər bu sirli fəlsəfəni dərk etməyə başladılar. İldən-ilə bu fəlsəfə futbolsevərləri, tamaşaçıları özünə dartırdı. Bu fəlsəfə “bizə baxın, həzz alın” - deyirdi sanki. Məftun etmişdi hamını “Barselona”nın oyun fəlsəfəsi.

“Barselona”nın sirli fəlsəfəsini digər komandaların məşqçiləri, onların köməkçiləri, mütəxəssisləri, ekspertləri də anlamağa başladılar. Lakin bu fəlsəfəyə qarşı nəsə düşünüb tapmaq hələlik alınmırdı. Əks oyun ortaya qoya bilmirdilər. Bu fəlsəfə o qədər mükəmməl idi ki, müdaxilə mümkün olmurdu. “Barselona” fəlsəfəsinin ana xəttinin, onurğa sütununun mahiyyətinin nədər ibarət olduğunu və bunun hansı üstünlüklər gətirdiyini digər məşqçilər, mütəxəssislər bilmirdilər. Lakin bunun qabağını almaqda çətinlik çəkirdilər.

Yohan Kruyiff və Frank Raykaardın komandaya rəhbərliyi dövründə Kataloniya klubunun futbol fəlsəfəsindən danışmaq hələ tez idi. Hərçənd ki, necə deyərlər, cücərtilər, işartılar artıq müşahidə olunurdu. Xosep Qvardiolanın məşqçilik fəaliyyəti dövründə komandanın yuxarıda şərh olunan əsas parametrlər baxımından formalaşması prosesi ən yüksək mərhələyə, pik həddinə gəlib çatdı. Məhz bundan sonra “Barselona”nın oyun fəlsəfəsindən danışmağa başladılar.Daha bir vacib detalı qeyd etmək istərdim. “Barselona”nın oyun fəlsəfəsi dəqiq və dəyişməzdir. Qvardioladan sonra hansı məşqçinin gəlməsindən asılı olmayaraq bu fəlsəfənin ana xətti toxunulmaz qaldı. Dünyagörüşünə, futbol təsəvvürlərinə, fantaziyalarına, yanaşma tərzlərinə, prizmalarına görə fərqli, müxtəlif məşqçilər Kataloniya klubunun sükanı arxasına keçsə də, “Barselona”nın bu sirli oyun fəlsəfəsi dəyişmədi.”Barselona”nın oyunlarına baxanda təkcə duyğulanmırsan. Həm də bu komandanın timsalında futbolun ecazkarlığı səni dönə-dönə düşündürür. Bax, budur, “Barselona”nın fəlsəfəsi!Tamaşaçı əlbəttə ki, komandanın xaricində nə var görür. Amma Kataloniya klubunun fəlsəfəsi təkcə bununla bitmir. Təbii ki, zahiri gözəllik tamaşaçını heyran edir, heyrətləndirir. Fəlsəfənin bir hissəsi də, necə deyərlər, batindədir, komandanın içəri qatlarındadır. Bu iki amil bir-biri ilə bağlıdır. Bütün hallarda hər iki şərtin ayrılmaz şəkildə birlikdə olması bu mükəmməl oyun fəlsəfəsinin bir sistem formasında yaranması ilə nəticələnib. Mən də çalışdım ki, bu barədə sizə danışım... Bax, belə....

## Məğlub olduğunu düşünürsənsə, deməli məğlub olacaqsan

Rayonlarda işlədiyim vaxtlarda “Barselona”nın oyunu başlayana qədər harada olsam da, özümü evə çatdırırdım. Bir qayda olaraq işıqları söndürüb oyunlara baxardım. Bir neçə şam yandırmaq adətən. Şamlarla bərabər “Barselona”nın şüaları da ətrafı, otağı işıqlandırırdı. Və bu futbol işığında düşüncələrə də qərq olurdum. Futbolun incəliklərini çözələyirdim. “Barselona” xal itirəndə, uduzanda fikirlər məni üzürdü. Bəzən bulud kimi tutulurdum. Həlledici, vacib oyunları uduzanda isə çoxları kimi sanki məndə də havasızlıq yaranırdı. Amma nə yaxşı ki, belə anlar nadir hallarda olurdu. Filosoflar, psixoloqlar deyirlər ki, əgər məğlub olduğunu düşünürsənsə, deməli məğlub olacaqsan. Hər şey insanın beynində başlayır çünki. Hər şey insanın beynində də kök atır. Əgər qalib gəlmək istəyirsənsə, qalib kimi düşünməlisən. Düşüncəndə də qalib kimi olmalısan. Bu mənada sanki psixoloqlar qrupu çalışır “Barselona”da. Bu komandada məğlub olmaq ehtimalı yoxdur.

“Barselona”nın oyunlarına baxan tamaşaçı qayğılarını müvəqqəti də olsa, unudur, əhvali-ruhiyyəsi yaxşılaşır. Bu komandanın oyunlarında tamaşaçılar qeyri-adi hisslər keçirirlər. Rəqib komandanın azarkeşləri isə, şoka düşürlər. “Barselona”nın oyunlarında elə məqamlar olur ki, bir də görürsən tamaşaçılar özlərindən asılı olmayaraq ayaqüstə baxırlar. Çox tez-tez olur belə hallar tamaşaçılarda. İstər stadionda, istərsə də ekran qarşısında. Elə mənim özümün də ayaqüstə izlədiyim epizodlar, anlar çox olur. Ayaqüstə olan tamaşaçılar belə anlarda öz aləmlərinə qapanırlar, sanki başqa bir aləmə gedib düşürlər. İçkili adamlar kimi... Belə anlarda “Barselona” azarkeşləri, tamaşaçılara daha da yaxınlaşır, doğma olur. Ümumiyyətlə, “Barselona”nın öz aləmi olan mövsümləri olub. Elə illər olub ki, həqiqətən digər klublar necə deyərlər, bu komandaya “bata” bilməyiblər. Bu komandanın təzyiqinə tab gətirmək mümkün olmayıb. Digər komandalar “Barselona”nın kodlarını açа bilmirdilər. Ona görə də Kataloniya klubunun qabağını almaq mümkün deyildi. Obrazlı desək, bu komandanı ancaq tank saxlaya bilərdi.

## “Barselona” oynayanda baxışlara, əllərin titrəyişinə, qeyri-adi hərəkətlərə baxın...

Əsl azarkeşin bəzi epizodlarda, bir sıra hallarda əlləri titrəməli, yanaqları allanmalı, vücudu az qala qeyri-adi hala düşməlidir. “Barselona” oynayanda baxışlara baxın, əllərin titrəyişinə baxın, qeyri-adi hərəkətlərə baxın... Və nəhayət, sonda sevincdən doğan göz yaşları... Sanki çətin anlarda Allah da “Barselona”nın yanında olur. Yoxu var eləyən, varı yox eləyən Allah! Axı, bu komandada Allah vergisi olan oyunçular həmişə çox olub. Azarkeşlər, tamaşaçılar, mütəxəssislər yaxşı bilirlər ki, “Barselona” heç vaxt nəticəyə oynamır. Məhz, həm də buna görə Kataloniya klubu sevilir. Oyunun gedişində və sonunda özlərinə məxsus coşqu ilə qucaqlaşmaq da bu komandada sanki fərqli görünür. Yəni, daha möhtəşəm, daha əzəmətli mənzərə yaradırlar sanki. Oyun bitdikdən sonra stadionda oxuyanlar gözəl idman şousuna xüsusi bir ahəng qatır. Hamı məmnunluq içində üzür. Azarkeşlər hər şeyi dəyərləndirməyi bacarırlar. “Barselona”nın hər oyunundan mütləq şou qoxusu gəlir. Bu qoxu tamaşaçılara böyük zövq verir. Hətta kubok yarışlarında, yoldaşlıq oyunlarında da belədir.

Eyni zamanda “Barselona” qol buraxanda stadiondakıların, tamaşaçıların lal baxışları da sanki başqa cür olur. Komanda uduzanda isə stadiona ağır sükut çökür. Amma yenə də ağız büzülmür. Axı, “Barselona”nın pərəstişkarları nadir hallarda məyus olurlar. Hər bir halda digər klubların azarkeşləri Kataloniya komandasının azarkeşlərinə qibtə edirlər. İndi bəzi adlı-sanlı, tanınmış klublar da “Barselona”nın yolunu getməyə çalışaraq meydanda şou göstərmək istəyirlər. Ancaq buna yalnız hərdənbir nail ola bilirlər. Tamaşaçılara hər oyunda böyük zövq vermək “Barselona”dan fərqli olaraq hər komandanın işi deyil.

Ümumiyyətlə, Kataloniya paytaxtında sanki futbol ətri hər yanda adamın burnuna dəyir (“Espanyol” komandasının da Barselona şəhərinə məxsus olmasını nəzərə almalıyıq). Şəhərin üz-gözündən, necə deyərlər, futbol yağır. Bu şəhərin sakinləri, sanki futbolla yaşayırlar. Şəhərə daxil olanın ilk təəssüratı belə olur.

Barselonada çoxsaylı millətlərin azarkeşləri, futbol həvəskarları sanki bir-birinə qaynayıb qarışır. Futbol bu şəhərdə az qala kultlaşdırılıb. Hər yanda futbol təsvirlərinə rast gəlinir. Soyuq və yağışlı havalarda da stadion dolur. Bir sözlə, bu şəhərdə futbol demək olar ki, rəmzə çevrilib. “Barselona”nın oyunlarına baxmaq üçün hamı stadiona tələsir. Budur, əsil futbol xoşbəxtliyi!

## Futbolda fərqlənmək, öz üslubunu yaratmaq və yaşatmaq çox çətindir

Nəhayət, qısaca da olsa “Barselona”nın uğurlarına imza atan oyunçulardan da danışaq (Messi haqqında ayrıca məqaləm vardır). “Barselona”nın hegemonluğu dövründə Viktor Valdes, Ronaldinyo, Karles Puyol, Andreas İnyesta, Xavi Ernandes, Serxio Busqets, David Vilya, Dani Alveş, Pedro Rodriqes və başqaları karyeralarının pik dövründə yaşayırdılar. Tanrı bu futboçulara özlərinə məxsus şəkildə istedad, bacarıq, qabiliyyət bəxş etmişdi. Sadəcə olaraq onların bu keyfiyyətləri Kataloniya klubunda üzə çıxdı və parladı. Onlara hər cür şərait yaradan Qvardiola isə üstəlik çalışmaq, əzmkarlıq keyfiyyətləri də aşıladı. Bu oyunçular hər matçda komandanın qələbəsi üçün döyüşürdülər. Bu futbolçuların sayəsində əla mövsümlər keçirən “Barselona” heç bir rəqibdən çəkinmirdi. Futbolun axını içində boy vermək, görünmək, fərqlənmək, öz üslubunu yaratmaq və yaşatmaq çox çətindir. Amma yuxarıda adı çəkilən futbolçular buna nail ola bildilər. Məhz, bu oyunçuların sayəsində “Barselona”nın hər oyunda şansı əhəmiyyətli dərəcədə yüksək olurdu.

Xavi və İnyesta oynadıqları illərdə dünyanın ən güclü oyun qurucuları olublar. Puyolun, İnyestanın, Xavinin, Vilyanın, Busqetsin, Pikenin, Albanın oyunlarını izlədikcə istər-istəməz düşünürsən ki, onlar bu qədər enerjini haradan alırlar? Həqiqətən heyrətlənməyə bilmirsən.

Elə İspaniya millisinin də 2008-2012-ci illər ərzində böyük uğurlar qazanmasında bu oyunçuların misilsiz, əvəzolunmaz xidmətləri olub.Əlbəttə, məşqçidən də çox şey asılıdır. Məşqçi oyunçulara zorla nəyisə pərçim eləməli deyil. Bu mənada da yuxarıda adı çəkilən futbolçular həmişə Qvardiolanın göstərişlərini, təkliflərini, məsləhətlərini həvəslə qəbul edirdilər. Məhz, Qvardiola “Barselona”nın bütün heyəti ilə ən yüksək səviyyədə ünsiyyət qurmağı bacardı. Həyat çox həssas tarazlıq üzərində qurulub: çalışmaq, qazanmaq və itirmək. Tədricən bu nəhəng komandanın da şifrələrini açmaq mümkün olurdu. Ulduz futboçuların da yaşının üstünə yaş gəlirdi. Bəzi futbolçular karyeralarını bitirdikdən sonra onların yerini uğurla doldurmaq mümkün olmurdu. Xüsusən, Puyol getdikdən sonra komandanın arxa xəttində problemlər yaşanmağa başladı. Son illərin transferləri də tam uğurlu alınmırdı. Komandanın pərəstişkarları da bəzən belə transferlərdən narazı qalırdılar. Seçimlər yerinə düşəndə, məşqçinin iş üslubuna uyğun gələndə, komandanın oyun mentiqinə söykənəndə, daha uğurlu nəticələr əldə etmək mümkün olur. “Barselona”nın son illər bəzi çempionat oyunlarını uğursuz keçirməklə xal itirməsini, çempionlar liqasında müvəffəqiyyət qazana bilməməsini bu amillərlə izah etmək olar.

## Kataloniya klubu odu sönməyən ruha malik, daim nikbin ruhlu komandadır

Futbol çempionatı uzun bir marafondur. Ona görə də titullar asanlıqla qazanılmır. Bəzən mövsüm çətin keçir. Rəqabət böyük olur. Ağır keçən mövsümdə də itirilən xalları bərpa etmək çox çətinləşir. İki-üç uğursuz oyun çempionluğa maneçilik törədir. Növbəti matçlarda xal itkisinə yol verməyən komanda çempion olur. Bəzən də çempionluq adı son tura qədər davam edir və axırıncı turda müəyyənləşir. Bir çox hallarda komanda inamlı mübarizə aparır, yaxşı oyun sərgiləyir, ancaq mövsümün əvvəlindəmi, yaxud ortasındamı itirilən xallar, eləcə də arxayınçılıq nəticəyə təsir edir və beləcə çempionluq əldən gedir. “Barselona”nın Madrid “Real”ını özündən irəli buraxdığı mövsümlərdə belə olub.

Bir də ki, istənilən komandada həmişə hər şey yüksəkliyə doğru getmir. Elə də ola bilməz ki, komanda hər il səhvsiz hərəkət etsin və dalbadal hər mövsümdə uğurlara imza atsın. Böyük uğurların arxasınca hərdən bir uğursuzluq da gəlir. Hədəflərə doğru gedəndə müəyyən səhvlər də qaçılmaz olur. Komandada ziddiyyətlər ortaya çıxa bilər. Yanaşma, təhlil, qiymət vermə proseslərində, münasibətlərdə subyektiv amillərin mövcud olmasını da yaddan çıxarmaq olmaz.

Nəhayət, bu dünyada heç kim heç nədən sığortalanmayıb. Elə futbol ulduzları da. Futbolçunun da həyatında nəsə yaxşıya və ya pisə yönələ bilər.

Bütün bunlara yanaşı “Barselona” futbolsevərlərin, pərəstişkarların gözündə nəhəng komanda olaraq qalır. Kataloniya klubu odu sönməyən ruha malik, daim nikbin ruhlu komandadır. Tamaşaçıda belə bir fikir formalaşıb ki, saatlarla “Barselona”nın oyunlarına baxa bilər, amma yorulmaz. Oyun zamanı elə anlar olur ki, yerində otura bilmirsən, ayaqüstə qalırsan, hətta tüklərin biz-biz olur. Bu komandanın oyunu, vurduğu qollar tamaşaçının ruhuna təsir edir. Bənzərsiz, qeyri-adi musiqinin təsiri kimi....

Elə komandalar var ki, onların da oyunlarında hər şey yerindədir. Hücum, müdafiə qaydaları, taktiki gedişlər, məşqçinin tövsiyələrinə əməl edilməsi, qolların vurulması və s. Lakin bu komandaların oyunları ruha təsir edə bilmir.

Mən özüm də “Barselona”nın oyunlarından elə bir zövq alıram ki, sanki maraqlı romanı oxuyuram, yaxud həddindən artıq maraqlı bir filmə baxıram. Komandanın oyunlarındakı valehedici monotonluqdan belə doymuram, yorulmuram. Bəzən elə olur ki, növbəti günlər də oyunların təkrarına həvəslə baxıram. Səmimi deyirəm ki, əksər hallarda “Barselona”nın oyunundan sonra baxdığım digər oyunların çoxu mənə o qədər də maraqlı gəlmir. İndi də “Barselona” mənim təsəvvürümdə digər klublardan kəskin fərqlənən bir komanda kimi qalır. “Barselona” azarkeşləri, tamaşaçıları ovsunlayan bir komanda kimi təsəvvürümdə canlanır həmişə. Yaddaşımda, xatirimdə “Barselona”nın elə oyunları qalıb ki, düşünürəm kaş bu oyunları musiqi notlarına çevirmək mümkün olaydı. Tarixdə not şəklində qalaydı. Videoyazı ilə yanaşı həm də nota çevrilmiş formada gələcəkdə dərslik, nümunə kimi istifadə olunaydı. “Barselona” ilə bağlı düşüncələrim təkcə komandanın pərəstişkarı olaraq bir azarkeş, tamaşaçı mövqeyi deyil. Düşünürəm ki, futbolsevərlərin böyük əksəriyyəti, mütəxəssislər, futbol yazarları mənim mülahizələrimlə razılaşacaq, yəqin. Məncə, səsləndirdiyim fikirlər futbol düşüncəli insanların qəbul edə biləcəyi fikirlərdir.

Beləliklə, “Barselona”nın sirli oyun fəlsəfəsinin əsas parametrlərini, detallarını, konturlarını verməyə çalışdım. Bax, belə... Vəssalam...

***Praqa-Düsseldorf-Barselona***



*Velosiped*



# Müstəqillik gününə həsr olunmuş veloyürüş keçirilib

***Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) təşkilatçılığı, Heydər Əliyev Mərkəzinin və Azərbaycan Velosiped İdmanı Federasiyasının (AzVİF) dəstəyi ilə veloyürüş keçirilib. Veloyürüş "Müstəqilliyimiz əbədidir" şüarı altında 18 oktyabr - Azərbaycanın Dövlət Müstəqilliyi Gününə həsr olunub.***

Yürüşdə Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-leytenant Mədət Quliyev, Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov, DTX-nın velosiped klubunun üzvləri, AzVİF-in idmançıları və eləcə də həvəskar velosipedçilər iştirak ediblər. Azneft meydanından start götürən veloyürüş Neftçilər prospekti, Yusif Səfərov küçəsi ilə davam edib və Heydər Əliyev Mərkəzinin qarşısında başa çatıb. Yürüş çərçivəsində Heydər Əliyev Mərkəzinin parkında Azərbaycanın ilk milli velosiped brendi olan "İsma Bikes" məhsullarının sərgisi təşkil olunub.

Müstəqillik günü ilə əlaqədar digər bir velosiped yarışı Biləsuvar rayonunda təşkil olunub. Veloyürüş Biləsuvar rayon Gənclər və İdman İdarəsinin, YAP Biləsuvar rayon təşkilatı Gənclər Birliyinin və Azərbaycan Velosiped İdmanı Federasiyasının birgə təşkilatçılığı ilə keçirilib. Müxtəlif yaş qruplarından olan 100-dən artıq velosipedçinin iştirak etdiyi yürüş Biləsuvar şəhərinin girişindən start götürməklə Heydər Əliyev küçəsi boyunca davam edib.

Veloyürüşdə fərqlənmiş iştirakçılar Biləsuvar rayon Gənclər və İdman İdarəsinin və Azərbaycan Velosiped İdmanı Federasiyasının diplom və hədiyyələri ilə təltif ediliblər. Mükafatları Biləsuvar rayonu Gənclər və İdman İdarəsinin rəisi Aqşin Bağırov və Azərbaycan Velosiped İdmanı Federasiyasının baş katibi Fərhad Əliyev təqdim ediblər.

*Cüdo*

## *Təmsilçilərimiz Əbu-Dabi Qran-prisində qüvvəsini sınayacaqlar*

Oktyabrın 26-da Əbu-Dabidə cüdo üzrə Qran-pri yarışı start götürəcək. Yarışda 50 ölkədən 314 (195 kişi, 119 qadın) cüdoçunun iştirak edəcəyi gözlənilir. 3 gün davam edəcək turnirdə Azərbaycan millisi də qüvvəsini sınayacaq. Məşqçilər heyəti Qran-pri yarışında güvənəcəyi heyəti artıq müəyyənləşdirib. Əbu-Dabidə kişilərin mübarizəsində Orxan Səfərov (60 kq), Nicat Şıxəlizadə (66 kq), Rüstəm Orucov, Hidayət Heydərov (hər ikisi 73 kq), Məmmədəli Mehdiyev (hər ikisi 90 kq), Elxan Məmmədov, Elmar Qasımov (hər ikisi 100 kq) və digər cüdoçular mübarizə aparacaqlar. Qadınların mübarizəsində isə Aişə Qurbanlı (48 kq), Nəzakət Əzizova (52 kq) və İrina Kindzerskaya (+78 kq) və digər xanım cüdoçular tatami üzərinə çıxacaqlar.





* * *

Şirvan şəhərində yeniyetmə cüdoçular arasında regional birincilik keçirilib. Azərbaycan Cüdo Federasiyasının dəstəyi ilə təşkil olunan yarışda Masallı, Salyan, Şirvan, Lənkəran, İmişli, Sabirabad və Biləsuvar idmançıları mübarizə aparırlar. Turnirdə 2003-2006-cı illər təvəllüdlü yeniyetmələr medallar uğrunda yarışıblar. Daha yaxşı nəticə göstərən Masallı cüdoçuları fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Sonrakı yerləri Salyan və Şirvan komandaları tutublar.

Qaliblərə Azərbaycan Cüdo Federasiyasının diplomları və medallar təqdim olunub. Cənub bölgəsi üzrə regional birincilik sabah davam etdiriləcək.

* * *

"Sərhədçi" İdman Olimpiya Mərkəzində yeniyetmə cüdoçular arasında keçirilən Bakı şəhər birinciliyinə yekun vurulub. İlk dəfə olaraq paytaxt birinciliyində rekord sayda, 567 idmançı mübarizə aparıb. Yarışda Azərbaycan Cüdo Federasiyası tərəfindən lisenziya verilən bütün klublar mübarizə aparıb.

Qaliblər Azərbaycan Cüdo Federasiyası və Bakı şəhər Gənclər və İdman Baş İdarəsinin diplom, medal və hədiyyələri ilə təltif olunublar. Bakı şəhər birinciliyinin mükafatçıları və perspektivli cüdoçular respublika çempionatında iştirak etmək hüququ əldə ediblər.

*Həndbol*

## *Ölkə birinciliyi böyükhesablı qələbələrlə diqqət çəkir*

Oktyabrın 14-də həndbol üzrə Azərbaycan çempionatında növbəti yarış gününə qadın həndbolçular arasında mübarizə ilə start verilib.

"Gənclər Birliyi" komandası ilə qarşılaşan "Azəryol" klubu böyük hesablı qələbə qazanıb - 42:17.

"Azərsu" həndbolçuları isə "Qarabağ" komandasından 32:22 hesabı ilə üstün olublar.

Çempionatın ikinci oyun günündə kişi həndbolçular arasında mübarizədə "Məhsul" həndbolçuları Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq Gənclər İdman Məktəbinin (RİOEUGİM) təmsilçiləri üzərində 36:17 hesabı ilə qalib gəliblər.

Günün digər oyununda isə "Bakı" kollektivi "Təhsil" komandasını çətinliklə məğlub edib - 32:31.

* * *

Oktyabrın 15-də Azərbaycanın qadınlardan ibarət "Nur" həndbol klubu Avropa Həndbol Federasiyası (EHF) kubokunda növbəti oyununu keçirib. Danimarkanın "Viborq" klubu ilə qarşılaşan komandamız rəqibinə böyük hesabla məğlub olub - 15:43.

Xatırladaq ki, komandalar arasında oktyabrın 14-də baş tutan ilk oyunda "Viborq" həndbolçuları 38:21 hesabı ilə qalib gəlmişdilər. Əvvəlcədən razılaşdırıldığı kimi, hər iki oyun Danimarkada keçirilib.

Beləliklə, Skandinaviya təmsilçisi iki oyunun nəticəsinə görə 81:36 hesabı ilə qalib gəlib.





*Voleybol*

## Futboldan sonra voleybolda da yenilik

FIFA-dan sonra Beynəlxalq Voleybol Federasiyası (FIVB) da voleybol üzrə yeni mötəbər turnir - Millətlər Liqasını təsis edib.





Bu barədə FIVB-nin yaradılmasının 70 illik yubileyi münasibətilə Parisdə keçirilən mərasimdə federasiyanın prezidenti Ari Qraça məlumat verib. O qeyd edib ki, 2018-ci ildə start götürəcək bu mötəbər turnir voleybol idmanı üzrə inqilabi yenilik olacaq. Millətlər Liqasının təsis olunması idman tarixində də ən mühüm hadisələrdən biridir.

FIVB-nin, Beynəlxalq İdman və Media Şirkətinin (IMG) və 21 milli federasiyasının birgə layihəsi olan voleybol üzrə Millətlər Liqasında qadınların və kişilərin yarışının hər birində 12 əsas və 4 əlavə komanda olmaqla ümumilikdə 16 kollektiv çempion adı uğrunda dairəvi sistem üzrə mübarizə aparacaq. Liqanın bir mövsümündə hər komanda ən az 15 oyun keçirəcək. Ümumilikdə isə bir mövsüm ərzində 130-dan artıq görüş oynanılacaq. Yarışlar zamanı əsas komandalardan biri ən az bir qrupun oyunlarına ev sahibliyi edəcək.

Voleybol üzrə Millətlər Liqasının təsis olunmasının əsas məqsədi idmanın bu növünün kütləviliyinin artırılması, voleybolçuların irimiqyaslı beynəlxalq platformada çıxış etməsinə şəraitin yaradılmasıdır. Həmçinin qadınlar və kişilər üçün bərabər səviyyəli beynəlxalq yarış platformasının təsis olunması voleybolun daha sürətli inkişafına töhfə verəcək.

Xatırladaq ki, Azərbaycanın qadın voleybolçulardan ibarət milli komandası sentyabrın 22-dən oktyabrın 1-dək keçirilən sonuncu Avropa çempionatında dördüncü yeri tutmasına baxmayaraq, Millətlər Liqasının iştirakçıları siyahısına salınmayıb.

* * *

Kişi voleybolçular arasında 2019-cu ildə keçiriləcək Avropa çempionatının seçmə mərhələsinin püşkü atılıb. Lüksemburqda keçirilən mərasimdə Azərbaycan yığmasının da rəqibləri müəyyənləşib.

"G" qrupunda yer alan baş məşqçi Fərid Cəlalovun rəhbərlik etdiyi yığmamız Yunanıstan, İsveç və Lüksemburq milliləri ilə qarşılaşacaq.

Qeyd edək ki, 2018-ci il avqustun 15-də start götürəcək seçmə mərhələyə 2019-cu ilin yanvarında yekun vurulacaq. Avropa çempionatının final mərhələsi 4 ölkədə - Hollandiya, Belçika, Fransa və Sloveniyada təşkil olunacaq.

*Futbol*

## *Millimizin baş məşqçisinə növbəti təklif*

Azərbaycan millisinin baş məşqçisi Robert Prosineçki daha bir komandanın maraq dairəsinə düşüb. Türkiyə mətbuatının yaydığı məlumata görə, xorvatiyalı mütəxəssis yenidən bu ölkədə çalışa bilər.

Belə ki, Ərsun Yanalla yollarını ayıran "Trabzonspor"un gündəmində olan mütəxəssislərdən biri də məhz Robert Prosineçkidir. Mövsümə uğursuz start götürən Qara dəniz təmsilçisi Superliqanın VIII turunda "Akhisar"a biabırçı hesabla (1:6) məğlubiyyətdən sonra Ərsun Yanalla vidalaşıb.

Dərhal axtarışa başlayan "bordo-mavililər"də baş məşqçi vəzifəsinə 6 namizəd var. Bunlar Robert Prosineçki ilə yanaşı, Fatih Terim, Rıza Çalımbay, Mustafa Reşit Akçay, Mişel Predom və Klod Pueldir.

Qeyd edək ki, "Trabzonspor" 8 turdan sonra 9 xalla turnir cədvəlinin 11-ci pilləsində qərarlaşıb. Millimizlə müqavilə müddəti başa çatmaq üzrə olan Robert Prosineçki isə Bosniya və Herseqovina, həmçinin Sloveniya yığmasının gündəmindədir.

## Rəqibimizin heyətində ciddi itki

UEFA Çempionlar Liqasının (ÇL) qrup mərhələsində "Qarabağ"ın rəqiblərindən biri olan "Roma" ciddi itki ilə üzləşib. "Canavarlar"ın müdafiəçisi Kostas Manolas sıradan çıxıb.

O, İtaliya A seriyasının 8-ci turu çərçivəsində keçirilən "Napoli" ilə ev oyununda (0:1) zədələnib.

İtaliya mətbuatı yunan futbolçunun "Çelsi" ilə ÇL-in oyununda meydana çıxmayacağını yazıb.

Qeyd edək ki, "Çelsi" - "Roma" oyunu oktyabrın 18-də keçiriləcək.

*Xəbərlər*

## Paralimpiyaçılarımız Belarusda fərqləniblər

Azərbaycan Milli Paralimpiya Komitəsinin boccia idman növü üzrə milli komandası Belarusda keçirilən turnirdə iştirak edib.

Yarışda Azərbaycan və Belarusun 5 komandası mübarizə aparıö. Turnirin yekununda Azərbaycan komandaları I, II, III yerləri tutublar.

Qaliblərə medalları Belarusun "Azərbaycan İcmaları Konqresi"nin sədri, Əməkdar İdman Ustası Natiq Bağırov təqdim edib.

## IV Şəki şəhər açıq birinciliyi təşkil olunacaq

Noyabrın 4-5-də idman dırmanması üzrə IV Şəki şəhər açıq birinciliyi keçiriləcək. Turnir Azərbaycan Hava və Ekstremal İdman Növləri Federasiyasının (FAIREX), Şəki Şəhər Gənclər və İdman İdarəsinin, "Şəki A.M.A" idman klubunun, Yeni Azərbaycan Partiyası Şəki rayon təşkilatı Gənclər Birliyinin və Şəki Regional Debat Mərkəzinin dəstəyi ilə təşkil olunacaq. Yarışda 10 yaşdan yuxarı oğlanlar və qızlar mübarizə aparacaq.

Turnirin keçirilməsində əsas məqsəd idmanın bu növünün kütləviliyinin artırılması, potensialı olan yeniyetmə və gənclərin üzə çıxarılmasıdır. Yarışda dərəcə qazanan idmançılar əsasında Şəki şəhərini ölkə səviyyəli turnirlərdə təmsil edəcək komanda formalaşdırılacaq.

*Futzal*

## "Araz" elit-raunda çıxa bilmədi

Futzal üzrə UEFA kubokunun əsas mərhələsində mübarizə aparan Azərbaycan çempionu "Araz" klubu qrupda son oyununu keçirib. Təmsilçimiz Rumıniya çempionu "Deva" klubu ilə qarşılaşıb.

**Futzal üzrə UEFA kuboku**

**Əsas mərhələ**

**"Araz" - "Deva" (Rumıniya) - 3:6**

**Qollar:** Vilela, 8, Bolinya, 31, Çovdarov, 39 - Matey, 6, 19, 39, İqnat, 18, Panzaru, 24, Tonita, 38.

***Deva idman kompleksi.***

Liderlik üçün çempionumuza heç-heçə bəs etsə də, komandamız məğlubiyyətlə barışmalı olub. 3:6 hesablı məğlubiyyət "Araz"ı turnir cədvəlinin ikinci pilləsinə salıb.

Bununla da təmsilçimiz turnirdə mübarizəsini dayandırıb.

Qeyd edək ki, "Araz"ın yer aldığı qrupdan elit-raunda yalnız birinci yerin sahibi vəsiqə qazanıb.

| | O | Q | H | M | T | X |
|---|---|---|---|---|---|---|
| 1. Deva | 3 | 2 | 0 | 1 | 13-8 | 6 |
| 2. Araz | 3 | 2 | 0 | 1 | 14-12 | 6 |
| 3. Sent Endryus | 3 | 1 | 0 | 2 | 11-13 | 3 |
| 4. Mostar | 3 | 1 | 0 | 2 | 7-12 | 3 |





*Atıcılıq*

## *Stend atıcılığı üzrə birinciliyə yekun vurulub*

Stend Atıcılığı İdman Kompleksində Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi tərəfindən keçirilən kişilər arasında stend atıcılığı üzrə Bakı şəhər birinciliyinə yekun vurulub. Yarış dairəvi və səngər stendi sistemi üzrə keçirilib. Səngər sistemi üzrə yarışda Mirmömin Ağazadə, Cabir Mehdizadə və Vaqif Məmmədov birinci, ikinci və üçüncü yerlərdə qərarlaşıblar. Dairəvi sistem üzrə yarışda isə Niyaz Ağazadə, Cavid Həsənov, Əli Səfərli ilk üç pillədə yer alıblar.

Qaliblər Baş İdarə tərəfindən müvafiq dərəcəli diplomlar və xatirə hədiyyələri ilə təltif olunublar.


Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
H/H AZ79IBAZ38090019449333849204
M/H 0137010002944
KOD 805250
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı və cümə günləri 6150 nüsxə ilə çap edilir.



E-mail:
olimpiya_dunyasi@mail.ru
Ünvan:
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-90-54; 564-74-19



DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.